**Vasif NƏCƏFOV,**
*AMEA-nın Hüquq və İnsan Haqları*
*İnstitutunun doktorantı*

# ANTİTERROR ƏMƏLİYYATLARININ APARILMASI ZAMANI İNSAN HAQLARININ POZULMASININ BƏZİ MƏSƏLƏLƏRİ

Terrorçuluğun formalarının fərqləndirilməsi onun ictimai-təhlükəli təbiətinin öyrənilməsində, ona qarşı mübarizə vasitələrinin işlənib-hazırlanmasında böyük əhəmiyyətə malikdir. Lakin bölgü zamanı fərqli meyarların sadalanması vahid sistemin formalaşmasına mənfi təsir edir. Sadalanan əsaslara görə bölgü ilə yanaşı, terror təşkilatlarının siyasi-ideoloji platformalarının da çox vacib elmi və təcrübi əhəmiyyəti vardır. Bu amillə bağlı ideoloji, millətçi, dini və s. digər növlər göstərilir.

Terrorçuluğun sosial-siyasi anlayış kimi mürəkkəbliyi onun siyasi məqsədlər, təşkilati struktur, istifadə olunan güc və vasitələr və s. digər əlamətlərlə səciyyələndirilən çoxsaylı formalarının mövcud olmasındadır. Terrorçuluğun ayrı-ayrı formalarının fərqləndirilmə əsası elmi ədəbiyyatda və siyasi praktikada istifadə olunan fərqli kriteriyalardır. İstifadə olunan metodlara görə fiziki və psixoloji terrorçuluq, güdülən siyasi məqsədlərə görə inqilabi və əks-inqilabi, obyektlərin xüsusiyyətlərinə görə seçilmiş konkret və kütləvi terrorizm fərqləndirilir. Bundan başqa, subyektlərə görə dövlət və qeyri-dövlət, terrorçuların cəmiyyətdəki hakimiyyətə münasibətinə görə hökumətyönümlü və müxalifətçi aktlar fərqləndirilir.

"İnsan hüquqları beynəlxalq terrorçuluq  və silahlı münaqişə kontekstində"  ifadəsi ilk dəfə 1949-cu ildə müharibə dövründə vətəndaşların müdafiəsi haqqında Cenevrə Konvensiyasının müəllifləri tərəfindən müəyyənləş-dirilmişdir. Bu sənədə görə bu konvensiyanın

müdafiəsi altında münaqişə tərəfinin və ya vətəndaş olmadığı bir işğalçı qüvvənin ixtilafı və ya işğal halında hər hansı bir zamanda və hər hansı bir şəkildə olan şəxslərdir [1].

Komissiya qarşısında ikiqat vəzifə var: birincisi, terrorçuluq və insan hüquqlarının başqa aspektlərinə toxunulmadan bütün konsepsiyanın öyrənilməsi (məsələn, terror aktlarına görə məsuliyyət, hərbi əməliyyatlar, işğallar və ya müstəmləkə hökmranlığı zamanı terrorçuluğun ayırd edilməsi), ikincisi, öz müqəddəratını təyin etmək hüququ və irqçi rejimlərə qarşı silahlı münaqişə və ya mübarizənin digər formaları. Sənəddə insan hüquqları sahəsində dövlətlərin öhdəlikləri üzərinə düşən və narahatlıq doğuran məsələləri müəyyən etmək üçün milli, regional və beynəlxalq terrorçuluqla mübarizə tədbirlərinin müzakirə və uyğunluğu, bu məsələ ilə bağlı yekun qətnamə qəbulu kimi vəzifələr öz əksini tapır.

1949-cu ildə Cenevrə Konvensiyalarının və 1977-ci ildəki əlavə protokolların bir sıra müddəalarında silahlı münaqişələr zamanı terrorçuluq qadağan edilib. Terrorçuluqla insan hüquqlarının pozulması birtərəfli baxıla bilməz. XX-XXI əsrlərin qovuşuğunda terrorçuluq problemi və onunla mübarizə istər ayrı-ayrılıqda hər bir dövlətin, istərsə də bütün dünya ictimaiyyətinin ən vacib məsələlərindən biridir. Bu, daha çox terror aktlarının miqyasının və xarakterinin genişlənməsi ilə izah olunur. Yaxın keçmişdə terrorçuluq haqqında lokal əhəmiyyət kəsb edən bir məsələ kimi danışılırdı. Lakin 80-90-cı illərin təcrübəsi bu fəaliyyəti dünya miqyaslı bir fenomen qüvvə kimi qiymətləndirməyə imkan vermişdir. Tarix göstərir ki, hər bir mübarizə müəyyən mənəvi dəyərlərə və ideyalara əsaslanır. İngilis mütəxəssisi Ş.Sigeller hesab edir ki, sözügedən anlayış ictimai qaydanın qorunmasına, müxalifətin sıxışdırılmasına yönəldilmiş məcburetmə aparatının öz səlahiyyətlərini aşmasını əks etdirir. Onun fikrincə, dövlət terrorçuluğuna qanunsuz saxlanılma, işgəncələr, gizli deportasiya, məxfi qəsdlər daxildir.

Terrorçuluq ekstremizmin təzahürlərindən biri olmasına baxmayaraq, ekstremizmin digər formalarından onunla fərqlənir ki, terrrorçuluğun bütün təzahürləri hüquqaziddir. Göründüyü kimi, terrorçuluq cinayətkarlığın ən təhlükəli formalarından biridir. Həmin

təhlükə transsərhəd formalardan törədilən terrorçuluğa da aiddir. Bir məqamı xüsusi vurğulamalıyıq ki, beynəlxalq terrorçuluğun yaratdığı təhdidlərin qarşısını almaq məqsədilə istifadə oluna biləcək metod və vasitələr, mexanizmlər yalnız beynəlxalq hüquq (xüsusilə insan haqları və beynəlxalq humanitar hüquq sahələrində) normalarına əsaslanmalıdır [2].

1993-cü ildə Vyanada Birləşmiş Millətlər Təşkilatında İnsan hüquqlarına aid beynəlxalq konfrans təşkil olunana qədər terrorçuluq kontekstində insan hüquqları məsələsinə xüsusi diqqət yetirilməmişdi. 2005-ci ildən etibarən Baş Assambleya beynəlxalq terrorçuluğun aradan qaldırılması tədbirlərinə aid ilk qətnamələri nəzərə alaraq "insan hüquqları və terrorçuluq"a dair qərar qəbul etməyə başladı. 1994-cü ildən etibarən İnsan Hüquqları üzrə Komissiya " insan hüquqları və terrorçuluq" mövzusunda qətnamələr qəbul edərək İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə Alt Komissiyadan onun prosedurları kontekstində terrorçuluq və insan hüquqları ilə bağlı araşdırma aparılmasını tələb etdi.

İnsan hüquqları və terrorçuluqla bağlı bir çox məsələlər İnsan Hüquqları Komissiyasının iclaslarında ətraflı müzakirə və təhlil edilmişdir. Bu müzakirələrə insan hüquqları və terrorçuluq arasında münasibətlərin məzmununu təşkil edən xüsusi və əsas məsələlər, terrorçuluqda insan hüquqları və fundamental azadlıqların həyata keçirilməsi üçün ən müvafiq olan siyasi və ictimai dəyərlərin təhlükəli hesab edilən əsas sahələrinin təhlili, terrorçuluğun insan hüquqlarına birbaşa və dolayı təsiri, müasir terrorçuluq və onun xarakteri və əks-terror tədbirləri daxildir [3].

Terrorçuluq kontekstində insan hüquqları məsələsini nəzərdən keçirərkən terrorçuluğun tərifini aydınlaşdırmaq lazımdır. Bu konsepsiyanın saysız təfərrüatları var. Məsələn, Rusiya və ABŞ mütəxəssislərinin fikrincə, terrorçuluq qeyri-döyüşçülərə qarşı həddindən artıq zorakılıq formalarının istifadəsi və ya təhdid edilməsi ilə bağlıdır. 2001-ci il 11 sentyabr terror hücumları zamanı terrorçuluqla mübarizə Avropada və dünyada siyasi prioritet halına gəldi. Bu faciəli hadisələr, ən açıq şəkildə, Qərbin demokratik dövlətlərində insan hüquqlarının və

qanunun aliliyinin fundamental dəyərlərinə birbaşa hücum kimi qəbul edildi. Onlar Amerika Birləşmiş Ştatlarına demokratiyanı terrorçuluqdan müdafiə etmək üçün bütün tədbirləri görməyə icazə verdilər. Terrorçuluqla mübarizədə vətəndaş hüquqları məhdudlaşdırılıb və fundamental hüquqlara təcavüzlərə qarşı təminat əhəmiyyətli dərəcədə azalıb. Minlərlə şübhəli amerikalılar və daha çox xaricilər hüquq və ədalətdən məhrum edilib.

BMT Baş katibinin bəyanatında "Terrorçuluqda əsasən insan hüquqlarının inkar edilməsi və tapdalanması" ifadəsi öz əksini tapıb. Qeyd etmək lazımdır ki, heç kəs dinc sakinlərə qarşı qeyri-bərabər hücumlara, ağılsız cinayətlərə, insanların həyatlarından məhrum edilməsinə haqq qazandıra bilməz. Təəssüflər olsun ki, bəşəriyyət hər zaman müxtəlif formaları və təzahürləri özündə birləşdirən terrorçuluqla üzləşib. Son on ildə intensivliyin artması və münaqişələrin sayının çoxalması ilə yanaşı, terror hücumları da artmışdır, terrorçuluq yayılaraq, cəmiyyətin tərkibini məhv etmişdir [4].

2018-ci il BMT Baş Katibliyinin hesabatına əsasən, ötən il 100-dən çox ölkədə ən azı 11 min terror hücumu törədilib. Nəticədə, 33 min nəfər yaralanıb, 25 min nəfərdən çox adam isə ölüb. 2016-cı ildə terror nəticəsində öldürülənlərin dörddə üçü yalnız beş dövlətə - İraq, Əfqanıstan, Suriya, Nigeriya və Somaliyə məxsus olub.

Terror qurbanlarının tipologiyası aşağıdakı səbəblərə görə həyata keçirilə bilər:

1) cinayətkar və qurban arasında qarşılıqlı təsir dərəcəsi;
2) qurbanın törədilmiş cinayətdə rolu.

Cinayətkarla terrorçuluq qurbanı arasında qarşılıqlı təsir dərəcəsi zamanı müstəqil qurban növləri müəyyən edilə bilər. Terror qurbanları terrorçunun cinayət törətməsi nəticəsində fiziki, maddi və mənəvi zərər görən, əxlaqsızlığa və ya onların konstitusiya hüquq və azadlıqlarının pozulmasına (məhdud) məruz qalan fərdi və hüquqi şəxslərdir [5].

Birbaşa terror qurbanlarına daxildir:

a) həyata keçirilmiş terror aktına fiziki olaraq daxil olan şəxslər: girovlar, zorakılıq qurbanları (partlayışlar, kütləvi zəhərlənmə və s.);

b) cinayətkarların fəaliyyətinin qarşısını almaqda iştirak edən hüquq-mühafizə orqanlarının əməkdaşları;
c) mülkiyyəti məhv edilmiş şəxs;
d) strateji obyektləri təmsil edən hüquqi şəxslər (ictimai nəqliyyat vasitələri, infrastruktur obyektləri, ictimai yerlər).

Dolayı zərərçəkmişlər, ilk növbədə, birbaşa terrora məruz qalan qurbanların qohumları və dostlarıdır. Onlar həmçinin terror aktları zamanı sağ qalmış şahidlər, habelə zərərçəkmişlərə ilk yardım göstərən şəxslərdir. Bu dolayı qurbanlar terrorçuların əsas hədəfləridir və onların sayı miqyassızdır. Terrorçuluq sülh və təhlükəsizliyə, dövlətlər arasında dostluq əlaqələrinə, dövlətin ərazi bütövlüyünün qorunmasına, onların siyasi, iqtisadi və sosial sabitliyinə, habelə bir şəxsin və vətəndaşın hüquq və azadlıqlarına təhlükə yaradır. Terrorçuluq fəaliyyəti yalnız insanı nəinki hüququndan məhrum edir, onu terror aktının qurbanına çevirərək mənəvi şikəst edir. Buna görə də, dünya ictimaiyyətinin narahatlığı olduqca haqlıdır [6].

Terrorçuluğun mövcud olması bir sıra beynəlxalq sənədlərdə – "Beynəlxalq İqtisadiyyat Konvensiyası"nda, girovların götürülməsi haqqında "Hüquq və Sosiologiya Bülleteni, 2014, № 1" qanununda, "Terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması haqqında" Konvensiyada, "Terrorçuluqla mübarizəyə dair Şanxay Konvensiyası"nda əks olunmuşdur [7].

Bir qayda olaraq, terrorçuluq hərəkatının aparılması əhəmiyyətli zərərin yaranması ilə əlaqədardır və təzminatı həmişə mümkün deyil. Terrorçular gizlənə və ya məhv edilə bilərlər. Onlar hətta sağ qalanda belə, tapılaraq onlar haqqında kompensasiya ödənilməsi üçün məhkəmə qərarı verilir. Terror aktları zamanı dəymiş zərərin kompensasiyası üçün iki mexanizm mövcuddur: terrorçuların qanunsuz hərəkətləri nəticəsində və xüsusi xidmət işçilərinin kompensasiya ödəmələri mövzusunda fərqlənən qanuni hərəkətlər.

Beləliklə, məqaləyə yekun vuraraq belə bir nəticəyə gələ bilərik: terrorçuluq haqqında birmənalı tərif mövcud olmasa da, mütəxəssislərin əksəriyyətinin gəldiyi qənaət budur ki, o, siyasi, dini, ideoloji, iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni zorun, gücün,

hədənin tətbiq olunması formasıdır. Terrorçuluq ekstremizmin təzahürlərindən biri olmasına baxmayaraq, ekstremizmin digər formalarından onunla fərqlənir ki, bir qayda olaraq terrorçuluğun bütün təzahürləri hüquqaziddir.

Terrorçuluq və onu doğuran səbəblərin aradan qaldırılması, insanlığa qarşı yönəlmiş bu dəhşətli cinayət əməlinə dünya dövlətlərinin ümumi müqavimətinin təşkil edilməsi müasir qloballaşma əsrində bəşəriyyət qarşısında həlli vacib, aktual məsələlərdən biri olaraq qalır. Hazırda terrorçuluq bütövlükdə dinc yaşamağın başlıca təhlükəsinə çevrilməklə, insan hüquqları sisteminə və sivilizasiyaya ən ciddi və qlobal təhdiddir. Dağıdıcı və ölçüyəgəlməz xarakteri ilə sərhəd tanımayan, ciddi sosial, siyasi, psixoloji təsirlər doğuran bu dəhşətli terror cinayəti həm də iqtisadi tərəqqi və inkişafın qarşısını alır [8].

İnsanları  terror təşkilatlarına cəlb etmək üçün bir qayda olaraq ”yüksək amallara söykənən motivlərdən” istifadə olunur. Terrorçuluq özünün qlobal təzahür formaları, miqyası və gözlənilməz nəticələri ilə XXI əsrdə də başlıca ictimai-siyasi və mənəvi problemlərdən biri olaraq qalır. Aktiv terror fəaliyyətinin episentri illər ötdükcə Latın Amerikasından Yaponiyaya, Yaxın Şərqə, Cənub-Şərqi Asiya regionuna, Avropa, Afrika və Amerika qitəsinə keçmişdir.

Terrorçuluq müasir cəmiyyətin gündəlik həyat tərzinə hakim olan, hər bir ölkənin milli təhlükəsizliyinə real təhdid və hədədir. Kriminoloqlar və hüquq sahələrinin ekspertlərinin rəyinə görə, terrrorçuluq mütəşəkkil cinayətkarlığın bütün növləri ilə vəhdətdə olduğu üçün transmilli cinayətlərlə mübarizədə çətinlik yaranır. Bu, terrorçuluğun zahirən sezilməyən cəhətlərindəndir. Cinayətin iştirakçıları, təşkilatçıları öz hərəkətləri ilə ictimaiyyəti psixoloji gərginlikdə və asılı vəziyyətdə qoymağa, onu “idarə etməyə” çalışırlar. Başlanğıcda qabaqlayıcı təsirli tədbirlərlə qarşılaşmayan terrorçular  fəaliyyət xəritəsini genişləndirərək siyasi hakimiyyətə diktələr edə bilir. Terrorçuluğun müasir dövrdə daha çox hədəfə götürdüyü kurs demokratik islahatların və sosial tərəqqinin təşkilinə mane olmaqda ifadə olunur [9].

Beləliklə, beynəlxalq aləmdə terrorçuluğun artımla müşahidə olunması dünyada qloballaşma prosesinə əngəldir. Qloballaşmanı iqtisadi terminologiya kimi qəbul etsək, o, sürətlə dünya məişətinə inteqrasiya olunur.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanunu, Bakı, 1999, 4 səh.
2. Avropa Təhlükəsizliyi Xartiyasına (19 noyabr 1999-cu ildə İstanbulda imzalanıb) Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının 12 dekabr 2000-ci il tarixli Qanunu, səh. 111.
3. Уолтер Лакер. Корни терроризма, Москва, 2003, 447 с.
4. Хасаншина Р.Г. Правовое регулирование механизма восстановления прав жертв террористических актов, Москва, 2014, 5 с.
5. http://e-notabene.ru/lr/article_9338.html
6. https://news.un.org/ru/story/2017/11/1314662
7. https://www.coe.int/ru/web/portal/terrorism-and-human-rights
8. https://www.osce.org/ru/odihr/29104?download=true
9. http://olaylar.az/news/dunya/185173